**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

===============================================

*Əlyazması hüququnda*

**ƏLİYEV ARİF BƏYLƏR OĞLU**

# İQTİSADİYYATIN AQRAR SEKTORUNDA BAZAR İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya isi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə emlər doktoru, professor
**Həmzə Ağakişi oğlu Xəlilov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru
**Vahid Hacıbəy oğlu Abbasov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Əsli Alı qızı Qurbanova**

**Aparıcı təşkilat: AMEA-nın İqtisadiyyat İnstitutu**

Müdafiə «31» oktyabr 2013-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxana-sında tanış olmaq olar.

Avtoreferat «30» sentyabr 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş**
**dissertasiya şurasının elmi**
**katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** Müasir mərhələdə inkişaf etmiş bazar infrastrukturunun mövcudluğu aqrar istehsalının genişləndirilməsi stimullarının gücləndirilməsi, habelə kənd təsərrüfatı istehsalının və ərzaq bazarının dövlət tənzimlənməsi tədbirlərinin səmərəli təşkili baxımından mühüm əhəmiyyətə malikdir. Aqrar sferada bazar infrastrukturu həm kənd təsərrüfatı istehsalının inkişafının maddi bazasının formalaşdırılması məsələlərinin həllinə bilavasitə təsir edən amil, həm də istehsal olunmuş əkinçilik və heyvandarlıq məhsullarının istehlakçılara əlverişli qaydada çatdırılmasının təminatçısı kimi çıxış edir. Bununla əlaqədar, bazar infrastrukturunun formalaşdırılması və ardıcıl surətdə təkmilləşdirilməsi bütövlükdə aqrar-sənaye sisteminin inkişaf etdirilməsinin mərkəzi məsələləri sırasında dayanır.

Azərbaycan Respublikasında sistem transformasiyaları ilə əlaqədar aqrar sferada bazar infrastrukturunun yeni sisteminin formalaşdırılmasına ehtiyac yaranmışdır. Ölkəmizdə əsaslı islahatların uğurla həyata keçirilməsi bu istiqamətdə irəliləyişlərə yol açmışdır. Dövlətin güclü maliyyə və təşkilati köməyi ilə müəyyən istiqamətlər üzrə infrastrukturun dirçəldilməsi təmin edilmiş, bu sahədə yeni obyektlərin şəbəkələri təşəkkül tapmağa başlamışdır.

Kənd təsərrüfatının istehsal vasitələri ilə təminatında yaranmış problemin həlli məqsədilə dövlət kənd təsərrüfatı texnikasının, mineral gübrələrin, ziyanvericilərə qarşı mübarizə vasitələrinin alınması üçün büdcədən vəsait ayırmaqla yanaşı, həm də onların aqrar istehsalçılara çatdırılmasına xidmət edən infrastrukturun formalaşdırılması ilə bağlı tədbirlər həyata keçirmişdir. Eyni zamanda, dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına xidmət edən infrastruktur obyektləri şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsi tədbirlərinin güzəştli şərtlərlə maliyyələşdirilməsinə böyük həcmli vəsaitlər ayrılmışdır.

Aqrar sferada bazar infrastrukturunun inkişafı sahəsində həyata keçirilən tədbirlər kənd təsərrüfatının texniki təminatının yaxşılaşdırılmasına, habelə aqrar sahədə istehsal edilən əkinçilik və heyvandarlıq məhsullarının itkilərinin azaldılması və keyfiyyəti saxlanılmaqla istehlakçılara çatdırılmasına şərait yaradır.

Bununla yanaşı, nəzərə almaq lazımdır ki, hələlik bazar infrastrukturunun səmərəli fəaliyyət göstərən sistem kimi formalaşdırılması təmin edilməmişdir. İnfrastruktur sferasında modern texnologiyaların tətbiqi miqyasları və xidmətlərin keyfiyyəti zəruri tələblər səviyyəsində deyildir. Bazar infrastrukturu sferasında mövcud olan struktur problemlərinin həllinə ehtiyac vardır. Eyni zamanda, bazar infrastrukturunun formalaşdırılması və fəaliyyətinin iqtisadi, təşkilati və institusional mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı məsələlərin həlli xüsusi maraq kəsb edir.



**Problemin öyrənilmə səviyyəsi.** Bazar infrastrukturunun mahiyyəti, iqtisadiyyat sistemində yeri və əsas funksiyalarına dair bir çox məsələlər iqtisadçılar tərəfindən tədqiq edilmişdir. Azərbaycanın iqtisadçı alimlərindən Z. Səmədzadənin, İ. Alıyevin, H. Allahverdiyevin, B. Ataşovun, E. Kərimovun, A. Ələsgərovun, Ş. Hacıyevin, G. Gənciyevin, İ. İbrahimovun, İ. Qarayerin, Ş. Muradovun, A. Nadirovun, N. Novruzovun, S. Salahovun, H. Xəlilovun, T. Şükürovun və başqalarının əsərlərində ölkəmizdə aqrar sahəyə xidmət edən bazar infrastrukturunun təşəkkülü və inkişafı ilə bağlı ayrı-ayrı məsələlər araşdırılmış, nəzəri və əməli yönümdə bir sıra maraqlı fikirlər irəli sürülmüş, təkliflər hazırlanmışdır.

Həmin məsələlərin metodoloji aspektləri xarici tədqiqatçılardan R. Yohimsenin, R.Nurksenin, P. Rozenşteyn-Rodananın, P.Sameolsonun, A.V. Sidoroviçin, İ.F. Çernyaevskinin əsərlərində araşdırılmışdır. İqtisadiyyatda sistem transformasiyaları ilə əlaqədar bazar infrastrukturunun formalaşması məsələləri V. İoxinin, İ, Kiselyovanın, İ. Kozelskayanın, A. Livşiçin, S. Menşikovun, V. Menjerin, V. Odesin, V. Staxanovun tədqiqatlarında işıqlandırılmışdır. A. Boqomolovun, V. Qoremikin, E, Puckovun, O.Teysilanın, E. Vasiliyevanın əsaərlərində isə bazar infrastrukturunun sahə xüsusiyyətləri, keçid dövründə aqrar sferada bazar infrastrukturunun təşəkkülü məsələləri açıqlanmışdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, göstərilən tədqiqatlarda iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun formalaşması və inkişafı məsələləri ayrıca tədqiqat predmeti olmamışdır. Bununla əlaqədar, həmin sahədə səmərəli fəaliyyət göstərən bazar infrastrukturu sisteminin yaradılmasının əsas istiqamətləri kompleksli araşdırılmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun formalaşdırılması və inkişafının əsas istiqamətlərinin araşdırılması, bu sahədə başlıca meyllərin aşkara çıxarılması, bazar infrastrukturu sisteminin təkmilləşdirilməsinə, infrastruktur xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və göstərilməsi şərtlərinin səmərələşdirilməsinə yönəldilmiş elmi tövsiyələrin hazırlanmasından ibarətdir.

Qarşıya qoyulmuş məqsədin reallaşdırılması ilə bağlı aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- iqtisadiyyat sistemində bazar infrastrukturunun yerini və funksiyalarını açıqlamaq;
- aqrar sektorda bazar infrastrukturunun xüsusiyyətlərini araşdırmaq;

- iqtisadiyyatda sistem transformasiyaları şəraitində aqrar sektorda bazar infrastrukturunun formalaşmasının gedişini tədqiq etmək;

- aqrar sektorda bazar infrastruktunun təşəkkülü mərhələlini və bu sahədə əsas meylləri müəyyən etmək;

- iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun inkişafının əsas istiqamətlərini açıqlamaq;

- bazar infrastrukturu şəbəkəsinin genişləndirilməsi və təkmilləşdirilməsi yollarını araşdırmaq ;

-bazar infrastrukturunun inkişafının səmərəli mexanizmlərinin formalaşdırılması məsələlərini tədqiq etmək.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini Azərbaycan Respublikası iqtisadiyyatının aqrar sektorunda bazar infrastrukturu sistemi təşkil edir.

**Tədqiqatın predmeti**. Tədqiqat işinin predmeti aqrar sektorda bazar infrastruktunun təkmilləşdirilməsi və inkişafının istiqamətləri və mexanizmləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını aqrar sektorda bazar infrastrukturunun formalaşdırılması və inkişafı problemlərini araşdıran iqtisadçı alimlərin elmi tədqiqatlarının nəticələri, Azərbaycan Respublikasında qüvvədə olan qanunlar, ölkə Prezidentinin fərmanları və digər hüquqi normativ aktlar təşkil etmişdir. Tədqiqat aparılarkən müqayisəli təhlil, məntiqi-sistemli yanaşma, struktur təhlili və b. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq materialları, Beynəlxalq maliyyə qurumlarının məlumatları, müvafiq elmi-tədqiqat qurumlarının, araşdırma mərkəzlərinin materialları, internet resursları istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi aşağıdakılardır:

- iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun formalaşması, quruluşu və fəaliyyətinin xüsusiyyətlərini müəyyən edən amillər və onların təsir mexanizmləri açıqlanmışdır;

- aqrar sektorda bazar infrastrukturunun çoxmeyarlı təsnifatı verilmişdir;

- sistem transformasiyaları şəraitində aqrar sektorda əsas istiqamətlər üzrə bazar infrastrukturun formalaşmasının mərhələləri əsaslandırılmışdır;

- müasir şəraitdə bazar infrastrukturu sistemində mövcud olan çatışmazlıqlar və onları doğuran amillər aşkar edilmişdir;

-bazar infrastrukturu şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsinin sürətləndirməsinə yönəldilmiş təkliflər hazırlanmışdır;

- kənd təsərrüfatı istehsalçılarına bazar infrastrukturu xidmətlərinin göstərilməsi şərtlərinin yaxşılaşdırılması yolları müəyyən edilmişdir;

- bazar infrastrukturunun formalaşdırılması və inkişafının təşkilati və institusional mexanizmlərinin təkmilləşdirilməsi barədə tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işində müəllif tərəfindən hazırlanmış təkliflər aqrar sferada səmərəli fəaliyyət göstərən bazar infrastrukturu sisteminin formalaşdırılmasına, kənd təsərrüfatı istehsalçılarının müvafiq infrastruktur xidmətlərinə tələbatlarının tam və əlverişli şərtlərlə ödənilməsinə, əkinçilik və heyvandarlıq məhsullarının istehlakçılara itkisiz və keyfiyyəti saxlanılmaqla çatdırılması məsələlərinin həllinə imkan və şərait yaradır.

Tədqiqat prosesində əldə edilmiş nəticələr, irəli sürülmüş müddəalar müvafiq istiqamətlər üzrə dövlət proqramlarının, habelə aqrar sektorun inkişafı ilə bağlı strateji yönümlü qərarların layihələrinin hazırlanması zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və işin nəticələrinin tətbiqi.** Dissertasiya işinin nəticələri respublika və beynəlxalq səviyyəli elmi konfranslarda və seminarlarda məruzə edilmiş və müzakirə edilmişdir. Dissertasiya işində aparılmış tədqiqatlar nəticəsində hazırlanmış təkliflər Saatlı rayon icra hakimiyyəti tərəfindən istifadə üçün qəbul edilmişdir (arayış № 2420, 27 dekabr 2010-cu il ).

**Tədqiqatın nəticələrinin nəşr olunması.** Dissertasiyanın mövzusu üzrə 8 elmi məqalə və tezis dərc olunmuşdur.

**Dissertasiyanın strukruru və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarət olmaqla 142 səhfədir. Dissertasiyada 10 cədvəl və 3 illüstursiya verilmişdir.

## İşin əsas məzmunu

Dissertasiyanın **girişində** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti əsaslandırılmış, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

**“Bazar infrastrukturu və iqtisadiyyatın aqrar sektorunda onun xüsusiyyətləri”** adlı birinci fəsildə bazar infrastrukturunun mahiyyəti, funksiyaları açıqlanmış, aqrar sektorda bazar infrastrukturunun formalaşması və fəaliyyət xüsusiyyətləri araşdırılmış, sistemli yanaşma əsasında onun elementlərinin təsnifatı verilmişdir.

Bazar infrastrukturu bazar iqtisadiyyatı sisteminin ayrılmaz hissəsi

olub, onun genişlənmə və rəqabət imkanlarını əhəmiyyətli dərəcədə müəyyən edən amillərdən biri kimi çıxış edir. Eyni zamanda, bu sfera iş yerlərinin yaradılması və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi baxımından da mühüm rola malikdir. Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, inkişaf etmiş bazar infrastrukturunun mövcud olduğu şəraitdə müasir marketinq və strateji planlaşdırma sistemi daha səmərəli istifadə edilir, iqtisadi və sosial inkişafın yüksək göstəricilərinə nail olunur.

Dissertasiyada bazar infrastrukturuna təşkilati-hüquqi, institusional, logistik, vasitəçilik xidmətlərinin istehsalı kimi yanaşmalar, bu sahədə elmi ədəbiyyatda özünə yer almış fikirlərin təhlili əsasında, araşdırılır. Müxtəlif müəlliflərin fikirlərinin müqayisəli təhlili əsasında belə nəticəyə gəlinir ki, iqtisadi mahiyyəti etibarilə bazar infrastrukturuna məhsul və xidmətlərin satışı ilə bağlı istehsalçılar, vasitəçilər və istehlakçılar arasında yaranan münasibətləri özündə əks etdirir. Vasitəçi iqtisadi əlaqələri əks etdirən həmin münasibətlər mübadilə sferasında yaranır, eyni zamanda, istehsalın inkişafına və səmərəliliyinin yüksəldilməsinə bilavasitə təsir göstərir.

İqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturu kənd təsərrüfatı istehsalçılarının digər bazar subyektləri ilə qarşılıqlı əlaqələrinin reallaşdırılmasını təmin edən institutların sistemi kimi çıxış edir və onun quruluşu və fəaliyyəti bilavasitə aqrar istehsalın xüsusiyyətləri ilə şərtlənir. Bununla yanaşı, tədavül xidmətləri funksiyalarının icraçısı olaraq, həmin sistemin formalaşması aqrar bazarın struktur xüsusiyyətlərinin ciddi təsirinə məruz qalır. Dissertasiyada həmin cəhətlər geniş araşdırılır və göstərilir ki, qeyd edilən amillərin təsiri öz nəticələrini aqrar sektorda bazar infrastrukturu obyektlərinin tərkibinin, onların fəaliyyət şəraitinin, xidmət şərtlərinin spesifikliklərində tapır.

Birincisi, bazarda çoxlu sayda kənd təsərrüfatı istehsalçıları güclü rəqabət şəraitində fəaliyyət göstərirlər. Bununla yanaşı, onların istehsal etdikləri məhsulların bir çoxunun tədarük sferası üçün təmərküzləşmə meyli güclü olur. Belə şəraitdə məhsulun əlverişli satış şərtlərinin təmin olunması bazar infrastrukturunun müvafiq vəsilələrinin təşkilati strukturunun formalaşmasına və fəaliyyət miqyaslarının tənzimlənməsinə xüsusi tələblər qoyur.

İkincisi, kənd təsərrüfatı istehsalında sabit xərclərin səviyyəsi yüksəkdir ki, bu da istehsalın həcminin azalması hallarında istehsalçıların maliyyə-iqtisadi vəziyyətin kəskin pisləşməsinə gətirib çıxarır. Digər tərəfdən, bioloji istehsal prosesinin uzunluğu səbəbindən kənd təsərrüfatı istehsalçılarının bazarda tələbin dəyişilməsinə çevik cavab verməleri mümkün olmur. Belə vəziyyətlə əlaqədar, iqtisadiyyatın aqrar sektoruna xüsusi şərtlərlə xidmət göstərən kredit-maliyyə infrastrukturunun formalaşdırılmasına zərurət



yaranır.

Üçüncüsü, bir çox istehsalçılar iri satış bazarlarından, məhsulun emal və saxlanılma yerlərindən uzaqda yerləşirlər ki, bu da daha əlverişli şərtlərlə birbaşa satışı həyata keçirməyə imkan vermir. Bununla əlaqədar, iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun istehsalçıların fəaliyyət ərazilərində, lokal səviyyədə xidmət göstərən elementlərin formalaşdırılması və onların fəaliyyətinin sistemin digər vəsilələri ilə səmərəli uzlaşdırılması əsasında qurulması vacib olur.

Dördüncüsü, kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən müəssisələr, həmin sahələr üzrə istehsalda miqyas effektinin mövcud olması ilə əlaqədar, bir qayda olaraq müvafiq bazarlarda inhisarçı mövqe tuturlar. Eyni zamanda, kənd təsərrüfatına istehsal-texniki xidmət göstərən qurumlar özlərinin xidmət regionlarında lokal inhisarçılıq mövqeyi tuturlar. Bunların nəticəsində həmin məhsullar və xidmətlərin aqrar istehsalçıları üçün əlverişli olmayan qiymətləri formalaşır. Qeyd edilənlərlə əlaqədar, müvafiq məhsullar və xidmətlərlə təminat həyata keçirən infrastruktur vəsilələrinin fəaliyyət dairəsində zəruri tənzimləmə və nəzarət sisteminin qurulmasına ehtiyac yaranır.

Bu cəhətlərdən hər birinin, istər bazar infrastrukturunun inkişaf problemlərinin araşdırılması və istərsə də onun fəaliyyətinin təşkili zamanı, diqqət mərkəzində saxlanılması tələb olunur. Eyni zamanda işdə, iqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun xüsusiyyətlərinin hərtərəfli açıqlanmasının onun təhlilinə müxtəlif yanaşma metodlarının tətbiqi əsasında mümkün olduğu göstərilir. Bununla əlaqədar, müəyyən ardıcıllıqla sistemli, dinamik, funksional və struktur yanaşmaların məzmunu açıqlanır.

Dissertasiyada bazar infrastrukturuna mürəkkəb sistem kimi yanaşılmaqla onun elementlərinin fəaliyyət növü, məhsul hərəkətinə təsir dərəcəsi, ərazi əlaməti və bazarda vasitəçilik tipi meyarları üzrə təsnifatı aparılmışdır. Eyni zamanda qeyd edilir ki, müxtəlif meyarlar üzrə təsnifatlar qarşılıqlı əlaqəli şəkildə nəzərdən keçirilməlidir.

Aqrar sektorda bazar infrastrukturunun hərtərəfli araşdırılması baxımından onun inkişaf vəziyyətinin kompleksli qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir. Belə qiymətləndirmə həm infrastruktur obyektlərinin formalaşması vəziyyətinin və həm də infrastruktur müəssisələrinin göstərdikləri xidmətlərin keyfiyyətinin dəyərləndirilməsini təmin etməlidir. Bununla əlaqədar, hər iki istiqamət üzrə göstəricilərin səmərəli tərkibinin formalaşdırılmasının təmin edilməsinə ehtiyac yaranır. Dissertasiyada istehsalçılarının müvafiq infrastruktur obyektləri ilə təminat səviyyəsini və onların yerləşdirilməsini səciyyələndirməyə imkan verən göstəricilərin, habelə ba-

zar infrastrukturu obyektlərinin göstərdikləri xidmətlərin keyfiyyətinin dəyərləndirilməsi üçün meyarlar göstərilir. Eyni zamanda, belə nəticəyə gəlinir ki, infrastruktur şəbəkəsinin vəziyyəti barədə daha dəqiq dəyərləndirmələrin aparılması, bu sahədə həll edilməli olan məsələlərin konkret istiqamətlərinin və miqyaslarının düzgün müəyyən edilməsi məqsədilə qeyd edilən göstəricilər üzrə normativ bazanın formalaşdırılması məqsədəuyğundur.

**“Əsaslı islahatlar şəraitində aqrar sferada bazar infrastrukturunun formalaşması”** adlanan ikinci fəsildə kənd təsərrüfatı üçün istehsal vasitələri bazarı infrastrukturunun formalaşmasının hazırkı vəziyyəti, kənd təsərrüfatı məhsulları bazarının yeni infrastrukturunun təşəkkülü və aqrar sektorda maliyyə vasitəçiliyi infrastrukturunun yaradılması məsələləri tədqiq edilir, bu istiqamətlər üzrə mövcud olan çatışmazlıqlar aşkara çıxarılır.

Postsosialist sistem transformasiyaları şəraitində aqrar sektorda bazar infrastrukturunun yeni sistemi formalaşmışdır. Bu proses üçün əsaslı islahatların gedişində həyata keçirilmiş liberallaşdırma və dövlət əmlakının özəlləşdirilməsi institusional baza yaratmışdır. Eyni zamanda, həmin baza üzərində aqrar-sənaye bazarının bölmələri üzrə yeni infrastrukturun təşəkkülü və inkişafı fərqli dinamikaya malik olmuşdur.

Nisbətən yüksək kapital tutumlu olan kənd təsərrüfatı istehsalçılarının istehsal vasitələri ilə təminatı bölməsinin infrastrukturunun dirçəldilməsi ləng həyata keçirilmişdir. Keçid dövründə yaşanan böhranla əlaqədar, aqrar sferanın texniki təminatında irəliləyişlərə son qoyulması nəticəsində istehsal vasitələrinin satışına xidmət edən infrastruktur obyektlərinin əsas hissəsi öz təyinatı üzrə istifadə edilə bilməmişdir.

Sonrakı mərhələlərdə aqrar sferada sistem transformasiyaları ilə bağlı yaranmış böhran proseslərinin başa çatması ilə əlaqədar, istehsal vasitələrinə tələb yüksəlmişdir. Bu isə öz növbəsində kənd təsərrüfatı üçün istehsal vasitələrinin satışını həyata keçirən infrastrukturun dirçəlişinə yol açmışdır. Dissertasiyada göstərilir ki, kənd təsərrüfatının istehsal vasitələri ilə təminatına xidmət edən infrastrukturun dirçəlişində əhəmiyyətli irəliləyişlərə bu sahəyə dövlət köməyinin artırılması, “Aqrolizinq” ASC-nin yaradılması və onun funksiyalarının genişləndirilməsi nəticəsində başlanmışdır. İşdə həmin sahədə həyata keçirilmiş tədbirlər geniş təhlil edilir. Göstərilir ki, aqrolizinq sistemi çərçivəsində nisbətən geniş infrastruktur obyektləri şəbəkəsi yaradılmış, onun vasitəsilə kənd təsərrüfatı istehsalçılarına müxtəlif növ texnikanın, mineral gübrələrin və digər kimyəvi vasitələrin, toxum və cins malqaranın satışı genişləndirilmişdir. Bu barədə kənd təsərrüfatı texnikasının əsas növlərinin alqı-satqısına dair aşağıdakı cədvəlin məlumatları da əyani təsəvvür yaradır (cədvəl 1).



Məlumatlardan aydın olduğu kimi, hazırkı dövrdə kənd təsərrüfatı istehsalçılarına satılan traktorların, kombaynların və bir sıra digər texnika növlərinin sayı xeyli yüksəkdir. Müqayisə üçün qeyd etmək olar ki, 2002-ci ildə ölkəmizə cəmi 86 traktor və 367 kənd təsərrüfatı maşınları idxal olunmuşdur. Bunlar 2011-ci ilin göstəricilərindən müvafiq olaraq 6.6 və 3,0 dəfə aşağıdır. Son dövrlərdə, xüsusilə “Aqrolizinq” ASC-nin fəaliyyətə başlaması ilə əlaqədar, kənd təsərrüfatı istehsalçılarına satılan texnikanın ümumi həcminin artması ilə yanaşı, onun çeşidi də əhəmiyyətli dərəcədə genişlənmişdir. Bu, aqrar sahədə əsas istehsal proseslərinin mexanikləşdirilməsi səviyyəsinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı texnikasının idxalı və satışında başlıca rol məhz “Aqrozinq” ASC-yə məxsusdur. Bu, bir tərəfdən texnikanın alınması üçün Şirkətə dövlət büdcəsindən hər il böyük həcmlərdə vəsait ayrılması, digər tərəfdən isə texnikanın kənd təsərrüfatı istehsalçılarına lizinq qaydasında satışının tətbiqi ilə əlaqədardır. Bununla yanaşı, işdə aparılan təhlillər istehsal vasitələri bazarının infrastrukturu ilə bağlı müəyyən çatışmazlıqların da mövcud olduğu göstərilir.

Cədvəl 1.

Azərbaycan Respublikasında 2011-ci ildə kənd təsərrüfatı texnikasının alqı və satqısı, ədəd

| Texnikanın növü | İlin əvvəlinə qalıq | Alınmış və daxil olmuşdur | Qalıqla birlikdə cəmi mədaxil | Ondan satılmışdır | | İlin sonuna qalıq |
|---|---|---|---|---|---|---|
| | | | | Miqdarı ədəd | Xüsusi çəkisi, % | |
| Traktorlar-cəmi | 436 | 566 | 1002 | 929 | 92,7 | 73 |
| Traktor yedəkləri | 12 | 14 | 26 | 25 | 96.2 | 1 |
| Taxılyığan kombaynlar | 28 | 39 | 67 | 20 | 29.9 | 47 |
| Çuğundur çıxaranlar | 32 | 1 | 33 | - | - | 33 |
| Ot biçənlər | 49 | 113 | 162 | 108 | 66.7 | 54 |
| Kotanlar | 234 | 577 | 811 | 581 | 71.6 | 230 |
| Ot, küləş presləyənlər | 25 | - | 25 | 25 | 100.0 | - |
| Səpici aqreqatların cəmi | 32 | 138 | 170 | 132 | 77.6 | 38 |
| Çiləyicilər və tozlayıcılar | 65 | 51 | 116 | 95 | 81.9 | 21 |
| Kartof basdıranlar | 2 | 3 | 5 | 2 | 40.0 | 3 |
| Gübrəsəpənlər | 40 | 51 | 91 | 26 | 28.6 | 65 |
| Taxıl-toxum təmizləyicilər | 13 | 1 | 14 | 6 | 42.9 | 8 |
| Sair maşın və aqreqatlar | 154 | 47 | 201 | 37 | 18.4 | 164 |

Birincisi, müvafiq istiqamət üzrə bazar infrastrukturu obyektlərinin

şəbəkəsi genişləndirilməlidir. Dövlət tərəfindən ölkə iqtisadiyyatının aqrar sektorunun gələcək inkişafı ilə bağlı qəbul edilən strateji sənədlərdə, o cümlədən 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında, habelə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2009-2013-cü illər) kənd təsərrüfatının istehsal vasitələri ilə təminatının genişləndirilməsinə yönəldilmiş tədbirlər sistemi müəyyən edilmişdir. Həmin vəzifələrin reallaşdırılması isə öz növbəsində bazar infrastrukturu şəbəkəsinin inkişafı ilə bağlıdır. Göstərilən istiqamətdə həyata keçirilən tədbirlərin miqyasları müasir şəraitdə aqrar sahənin inkişaf tələblərinə uyğunlaşdırılmalıdır.

İkincisi, bazar infrastrukturu obyektlərinin mövcud yerləşdirilməsi bir çox hallarda kənd təsərrüfatı istehsalçılarının istehsal vasitələri ilə təminatı üzrə xidmətlərin səmərəliliyi baxımından əlverişli deyildir. Belə hal müvafiq xidmətlərdən istifadənin genişləndirilməsinə istehsalçıların marağının azalması ilə nəticələnir.

Üçüncüsü, aqroservis sisteminin rayonlarda yaradılmış vəsilələrinin bir qisminin maddi-texniki bazası müasir tələblərə cavab vermir. Bu sahədə vəziyyət müasir standartlara uyğun xidmət göstərilməsinə imkan yaratmır.

Dördüncüsü, istehsal vasitələri ilə təminat sahəsində bazar infrastrukturu vəsilələrinin kənd təsərrüfatı istehsalçılarına satışdan sonra zəruri səviyyədə xidməti təşkil edilmir. Belə vəziyyət öz növbəsində modern texnikanın səmərəli istifadəsi, habelə xaricdən alınmış cins mal-qaranın tələfatının qarşısının alınması tələblərinə uyğun gəlmir.

Beşincisi, son illərdə aqrar sektorda istehsal vasitələri ilə təminatın bazar infrastrukturunun inkişafı üstün olaraq dövlət sektoru hesabına həyata keçirilir. Bu sahədə dövlət qurumlarının mövqeyi getdikcə möhkəmlənir. Özəl sektora aid olan infrastruktur subyektlərinin onlarla rəqabət imkanları zəifləyir. Bu, bazar infrastrukturu xidmətlərinin aqrar istehsalçılar üçün səmərəliliyinin təmin edilməsi, azad seçim əsasında daha münasib xidmət şərtlərindən yararlanmaya şərait yaradılması baxımından əlverişli deyildir.

Keçid iqtisadiyyatı şəraitində kənd təsərrüfatı məhsulları bazarının infrastrukturunun yeni sisteminin formalaşdırılması əsaslı islahatların ümumi məcrasında aparılmışdır. Dissertasiyada bu işin 3 mərhələsi ayrılır və onların hər birində baş verən proseslər açıqlanır. Göstərilir ki, birinci mərhələ transformasiya proseslərinin başlanğıcında baş vermiş sistemli böhran dövrünə təsadüf etmişdir. Bu dövrdə kənd təsərrüfatı məhsullarının tədarükü və topdansatışı sisteminə aid infrastruktur obyektlərinin əksər hissəsi özlərinin fəaliyyətlərini dayandırmış, istehsal həcminin azalmasına uyğun olaraq, bazar infrastrukturunun həmin məhsulların pərakəndə satışını təmin edən vəsiləsində fəaliyyətin miqyasları əsaslı şəkildə kiçilmiş, eyni zamanda onların maddi-texniki vəziyyəti də xeyli pisləşmişdir.

Sistem transformasiyaları şəraitində kənd təsərrüfatı məhsulları bazarının infrastrukturunun yeni sisteminin formalaşdırılmasının ikinci mərhələsi bu sahədə köklü institusional dəyişikliklərin aparılması, yeni fəaliyyət və tənzimləmə mexanizmlərinin yaradılması və dirçəlişin başlanılmasını əhatə edir. Ölkədə əsaslı islahatların geniş surətdə həyata keçirilməsinə təsadüf edən bu dövrdə, ilk növbədə iqtisadi liberallaşdırma və özəlləşdirmə əsasında bazar infrastrukturunun yeni institusional siması formalaşdırılmışdır.

Bazar infrastrukturunda özəl sahibkarlığın üstün mövqelərə yiyələnməsi bu sahədə irəliləyişlərə yol açan amilə çevrilmişdir. Eyni zamanda, kənd təsərrüfatı istehsalının böhrandan sonrakı bərpası və inkişafı infrastrukturun dirçəlişinə güclü təkan vermişdir. İnfrastrukturun inkişafının zəruriliyini şərtləndirən digər mühüm amil, ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə əlaqədar, kənd təsərrüfatı məhsullarına tələbin həcminin yüksəlməsi və müvafiq bazar seqmentinin genişləndirilməsi olmuşdur. Bazarın həcminin artması bütün əsas satış kanalları üzrə baş vermişdir.

İşdə həmin prosesin gedişi təhlil edilir və göstərilir ki, bazar infrastrukturunun bir sıra əsas elementlərinin dinamikası ümumən kənd təsərrüfatı məhsullarının istehsalı və satışının həcminin dəyişilməsinə adekvat olmuşdur. Lakin, eyni zamanda, nəzərdən keçirilən mərhələdə aqrar sferada istehsal olunan məhsulların reallaşdırılmasına xidmət edən infrastrukturun inkişafı sahəsində bir sıra çatışmazlıqlar da mövcud olmuşdur.

Birincisi, infrastruktur obyektlərinin sayının çoxalması və onların xidmət potensiallarının genişlənməsi templəri satış üçün istehsal edilən kənd təsərrüfatı məhsullarının həcminin artım templəri ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağı olmuşdur. Digər tərəfdən, kənd təsərrüfatının bərpası və inkişafının təmin edildiyi bir şəraitdə aqrar sferada bazar infrastrukturunun bütün parametrlər üzrə genişləndirilməsi zərurətinə baxmayaraq, bir sıra istiqamətlərdə obyektlərin sayının və ümumi xidmət potensialının ixtisar olunmasına yol verilmişdir. 2006-2010-cu illərdə bazarların və yarmarkaların sayı 24,2 %, bu obyektlərdə ticarət yerlərinin sayı isə 41.8 % azalmışdır.

Aqrar istehsalın həcmi ilə kənd təsərrüfatı məhsulları bazarının infrastruktur obyektlərinin dinamikası arasında yaranmış disproporsionallıq 1-ci qrafikində də əyani surətdə öz əksini tapmışdır.




a- bazar və yarmarkaların sayı
b- bazar və yarmarkalarda ticarət yerlərinin sayı
c- mağazaların sayı
d- mağazaların ticarət sahəsi
e- kənd təsərrüfatı istehsalının fiziki həcmi
f- hüquqi şəxs statusu almış ticarət və xidmət müəssisələrinin sayı

Şək. 1. Kənd təsərrüfatı istehsalı və bəzi bazar infrastrukturu obyektlərinin göstəricilərinin dəyişməsi.

Qrafik materialdan aydın şəkildə göründüyü kimi, kənd təsərrüfatı istehsalının fiziki həcm göstəricisinin dəyişilməsi ilə müqayisədə bazar infrastrukturu şəbəkəsinin nəzərdən keçirilən 5 göstəricisindən 4-nün dinamikası əlverişsiz olmuşdur. Həmin göstəricilər ya nisbətən aşağı templərlə artmış və yaxud da azalma meyli nümayiş etdirmişdir.

Eyni zamanda, kənd təsərrüfatı məhsulları bazarı infrastrukturunun mövcud obyektlərinin əhəmiyyətli qismi köhnəlmişdir. Onların vəziyyəti müvafiq məhsulların itkisiz və öz keyfiyyətini saxlamaqla istehlakçılara çatdırılması tələblərinə tam cavab vermir. Göstərilənlərlə əlaqədar olaraq, kənd təsərrüfatı məhsullarının reallaşdırılmasının infrastruktur təminatı hələlik zəruri tələblərə uyğun deyildir.

Yuxarıda göstərilənlər öz növbəsində aqrar sferada bazar infrastrukturunun müvafiq vəsiləsinin inkişafında yeni mərhələyə keçidin zəruriliyini şərtləndirmişdir. Son dövrlərdə başlanmış olan bu mərhələ modern bazar infrastrukturunun formalaşdırılmasına yönəldilmişdir. Dissertasiyada həmin mərhələdə həyata keçirilən işlər əsas istiqamətlər üzrə təhlil edilir. Göstərilir ki, müəyyən irəliləyişlər olsa da həyata keçirilən tədbirlərin miqyasları hələlik kifayət qədər geniş deyildir.

İşdə kənd təsərrüfatı məhsullarının satışının təmin olunmasına xidmət edən yeni infrastrukturun formalaşdırılmasının üçüncü mərhələsində baş



verən struktur dəyişiklikləri də araşdırılır. Belə nəticəyə gəlinir ki, hələlik kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılmasına xidmət edən yeni bazar infrastrukturunun formalaşdırılmasında zəruri komplekslilik təmin edilmir. Bu sahədə əsas diqqətin və resursların başlıca olaraq istehsal edilən məhsulun saxlanılmasının modern obyektlərinin yaradılmasına yönəldilməsi ilə əslində sistemin formalaşdırılmasında birtərəfliliyə yol verilmiş olunur. Bazar iqtisadiyyatı şəraitində səmərəli təsərrüfatçılığın təmin edilməsi üçün zəruri olan bir sıra infrastruktur elementlərinin, o cümlədən birja ticarəti, məsləhət, informasiya, reklam və digər zəruri xidmətlər göstərən vəsilələrin inkişaf miqyasları kifayət qədər geniş deyildir.

Dissertasiyada kənd təsərrüfatına xidmət edən yeni maliyyə vasitəçiliyi infrastrukturunun formalaşması məsələləri araşdırılır. Aqrar istehsalçıların kreditləşdirilməsini, habelə bu sahədə sığorta işini həyata keçirən qurumlar şəbəkəsinin strukturu təhlil edilir. Həmin qurumların kənd təsərrüfatının maliyyə vasitəçiliyi xidmətlərinə olan tələbatlarının ödənilməsində rolu açıqlanır.

**“İqtisadiyyatın aqrar sektorunda bazar infrastrukturunun inkişafının əsas istiqamətləri”** adlı üçüncü fəsildə kənd təsərrüfatının istehsal vasitələri ilə təminatı şəbəkəsinin inkişafı, kənd təsərrüfatı məhsulları bazarının infrastrukturunun təkmilləşdirilməsi, marketinq-informasiya infrastrukturu sisteminin yaradılması, bazar infrastrukturunun inkişafında kooperativlərin rolunun artırılması məsələləri tədqiq edilir.

İşdə göstərilir ki, kənd təsərrüfatı istehsalçılarının istehsal vasitələrini zəruri həcmdə və əlverişli şərtlərlə əldə etmələrinə təminat yaradılması üçün müvafiq yönümlü infrastruktur obyektləri şəbəkəsinin genişləndirilməsi istiqamətində aparılan işlərin miqyasları artırılmalıdır. Bu tədbirlər istehsal vasitələrinin satış şəbəkəsinin genişləndirilməsi, mövcud infrastruktur obyektlərinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, satış məntəqələrinin kənd təsərrüfatı istehsalçılarına yaxınlaşdırılması, göstərilən xidmətlərin çeşidinin genişləndirilməsi ilə müşayiət olunmalıdır.

Müasir şəraitdə aqrar sektorun istehsal vasitələri ilə təmin edilməsi infrastrukturunun inkişaf konsepsiyası bu sahədə rəqabətli bazarın formalaşdırılması strategiyasının həyata keçirilməsini nəzərdə tutmalıdır. Kənd təsərrüfatı istehsalının modernləşdirilməsi tələblərinə uyğun olaraq, texniki təminat səviyyəsinin yüksəldilməsinə məhz rəqabətli bazar şəraitində daha əlverişli imkanlar yaranmış olur. Digər tərəfdən, rəqabətli bazarın mövcudluğu müvafiq yönümdə infrastrukturun bir sistem olaraq təkmilləşdirilməsinin, bu sahədə xidmətlərin keyfiyyətinin yüksəldilməsi və şərtlərinin yaxşılaşdırılmasının zəruri şərti kimi çıxış edir.

Hazırkı şəraitdə kənd təsərrüfatı texnikası bazarına "Aqrolizinq" ASC-yə rəqib ola biləcək alternativ oyunçuların daxil olmasının mümkün variantları kimi bank lizinqinin tətbiqi, xarici ölkələrin kənd təsərrüfatı texnikası istehsal edən müəssisələrinin ölkəmizdə diler xidmətlərinin qurulması, habelə texnika satışı üzrə özəl sahibkarlıq şirkətlərinin formalaşdırılması nəzərdən keçirilə bilər. Dissertasiyada bu istiqamətlərin hər biri üzrə mövcud imkanlar araşdırılır və müvafiq təkliflər formalaşdırılır.

Kənd təsərrüfatının istehsal vasitələri ilə təminatına xidmət edən bazar infrastrukturu subyektlərinin rəqabət əsasında fəaliyyət göstərməsi üçün zəruri şəraitin yaradılmasının vacib şərtlərindən biri bu sahədə dövlət köməyinin təşkilinin institusional mexanizmlərində dəyişikliklərin həyata keçirilməsidir. İşdə bu istiqamətdə aparılan araşdırmalar əsasında kənd təsərrüfatı üçün istehsal vasitələrinin lizinqə verilməsindən və lizinq yolu ilə satışından əldə edilən vəsaitlərin, habelə dövlət büdcəsindən kənd təsərrüfatı texnikasının və digər istehsal vasitələri növlərinin aqrar istehsalçılara lizinq yolu ilə satılmaq məqsədilə alınmasına yönəldilən ayırmaların ayrıca fondda (Aqrar Lizinq Fondunda) cəmləşdirilməsi məqsədəuyğun olduğu əsaslandırılır. Eyni zamanda ölkədə bazar təsərrüfatçılığı sisteminə adekvat kənd təsərrüfatı krediti sisteminin zəruri vəsilələrinin qurulması vacib olduğu vurgulanır.

Göstərilən vəsilələr arasında əsas yeri kənd təsərrüfatına xidmət sahəsində ixtisaslaşan kommersiya bankı tutmalıdır. Həmin bank kənd təsərrüfatı istehsalının xüsusiyyətlərini nəzərə almaqla təşkil etməli, bu xüsusiyyətlərə uyğun kreditləşdirmə qaydaları və digər xidmət mexanizmləri tətbiq etməlidir. Müvafiq sahədə dünya praktikasına, o cümlədən bir sıra postsovet ölkələrinin təcrübəsinə uyğun olaraq kənd təsərrüfatına kömək məqsədləri üçün ayrılan dövlət vəsaitlərinin istifadəsinin də daha çox qeyd edilən bank vasitəsilə həyata keçirilməsi məqsədəuyğun olacaqdır.

Azərbaycan Respublikasının maliyyə-bank sektorunda yaranmış vəziyyətin xüsusiyyətləri ixtisaslaşdırılmış bank tərəfindən kənd təsərrüfatı istehsalçılarının kreditləşdirilməsi və digər müvafiq xidmətlərin göstərilməsinə dövlət nəzarətinin güclü olmasının, vacib hallarda müstəqim dövlət təsirinin təmin olunmasının zəruriliyini şərtləndirir. Bununla əlaqədar, müasir şəraitdə ölkəmizdə aqrar sektora xidmət edən ixtisaslaşdırılmış bankın dövlət bankı, yaxud da səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan bank kimi yaradılması məqsədəuyğundur. İkinci variantın reallaşdırılacağı halda bankın təsisçiləri sırasına xarici qurumlar, o cümlədən beynəlxalq maliyyə təşkilatları da qoşula bilərlər.

İqtisadiyyatın aqrar sektorunun istehsal vasitələri ilə təminatının maliyyələşdirilməsi və kreditləşdirilməsinin səmərəli təşkili maliyyə vasitəçiliyi infrastrukturunda digər vacib vəsilənin - kənd təsərrüfatının güzəştli maliyyələşdirilməsi Fondunun yaradılması ilə də sıx bağlıdır. Belə fond bir çox postsosialist ölkələrdə yaradılmışdır. Həmin fondların mövcudluğu kənd təsərrüfatına xidmət edən ixtisaslaşdırılmış bankların səmərəli fəaliyyətinin təmin edilməsinin mühüm şərtlərindən biri kimi çıxış edir.



Artıq qeyd edildiyi kimi, dövlət kənd təsərrüfatı istehsalçıları üçün əlverişli kredit şərtlərinin yaradılmasında fəal iştirak etməlidir. Bu istiqamətdə fəaliyyət üçün maddi zəmin isə qeyd etdiyimiz xüsusi fond ola bilər. Fond dövlət büdcəsinin vəsaiti hesabına formalaşdırılmalıdır.

Kənd təsərrüfatının güzəştli maliyyələşdirilməsi fondunun vəsaitləri aqrar sferaya xidmət edən ixtisaslaşdırılmış bank vasitəsilə aşağıdakı istiqamətlər üzrə istifadə edilə bilər:

- kənd təsərrüfatı istehsalçılarına, aqrar sferaya xidmət göstərən infrastruktur subyektlərinə, habelə kənd təsərrüfatı məhsullarının emalını həyata keçirən müəssisələrə güzəştli kreditlərin verilməsi. Bu istiqamət üzrə aqrar sferaya xidmət edən ixtisaslaşdırılmış bankın Fondun vəsaiti hesabına formalaşdırılmış kredit resursları dövlət tərəfindən müəyyən edilən aşağı faiz dərəcələri ilə qeyd edilən müştərilərə paylanır;
- aqrar sferada fəaliyyət göstərən təsərrüfat subyektlərinin digər kommersiya banklarından aldıqları kreditlərin faizlərinin müəyyən hissələrinin ödənilməsi. Bu halda dövlət tərəfindən müəyyən edilmiş proqramlar çərçivəsində kommersiya banklarından alınmış kreditlərin faizlərinin Fondun vəsaiti hesabına qismən subsudiyalaşdırılması həyata keçirilir. Beləliklə, aqrar sektorun maliyyələşdirilməsinə kommersiya banklarının nisbətən böyük həcmlərdə kredit vəsaitlərini cəlb etmək mümkün olur;
- kənd təsərrüfatı istehsalçılarının banklardan kredit almaları üçün zəmanətlərin verilməsi. Hazırda aqrar istehsalçıların əksəriyyətinin banklara kreditlər üçün zəmanət olaraq girov qoymaq üçün yüksək likvidlikli əmlakları çatışmır. Bununla yanaş, torpaq sahələri də hələlik kommersiya bankları tərəfindən girov kimi qəbul edilmir. Belə şəraitdə Fondun vəsaiti hesabına zəmanətlərin verilməsi aqrar sferada fəaliyyət göstərən təsərrüfat subyektlərinin kreditlə təminatının miqyaslarının əhəmiyyətli dərəcədə genişləndirilməsinə imkan yaratmış olacaqdır.

Müasir şəraitdə Azərbaycan Respublikasında dövlətin maliyyə imkanları kənd təsərrüfatının güzəştli maliyyələşdirilməsi məqsədilə yaradılacaq fonda kifayət qədər böyük həcmlərdə vəsait ayırmağa təminat yaradır. Belə vəziyyətdə isə həmin fonddan yuxarıda göstərilən hər üç istiqamət üzrə paralel olaraq maliyyələşdirməni həyata keçirmək mümkün ola bilər. Bu-

nunla yanaşı, digər ölkələrdə toplanılmış müvafiq təcrübəyə əsasən, belə bir cəhəti nəzərə almaq lazımdır ki, gələcəkdə Fondun vəsaitinin sonuncu iki istiqamət üzrə istifadə edilməsi üstünlük təşkil edəcəkdir.

Dissertasiyada kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına xidmət edən infrastrukturun təkmilləşdirilməsi yolları araşdırılır Göstərilir ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına xidmət edən infrastrukturun mövcud quruluşunun digər ölkələrlə müqayisədə spesifik cəhəti bu sistemdə topdansatış vəsiləsinin zəruri səviyyədə formalaşmamağıdır. Belə vəziyyət son nəticədə müvafiq məhsul növlərinin istehsaldan istehlakçıya çatdırılmasında səmərəliliyin təmin edilməsi baxımından əlverişli deyildir. İşdə birjanın aqrar sferada topdansatış infrastrukturunun mühüm elementinə çevrilməsi zəminləri araşdırılır, birja ticarətinin həyata keçirilməsi üçün sivil şərait yaradılması yolları açıqlanır.

Müasir şəraitdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının, o cümlədən, meyvə, tərəvəz, heyvandarlıq məhsulları bazarının tədarük və topdansatış infrastrukturunun inkişafı, bu sahədə modern obyektlərin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsi bazar infrastrukturunun inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilməlidir.

Kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına xidmət edən infrastrukturun təkmilləşdirilməsinin mühüm yönümünü bu sferada inhisarçılıq hallarının məhdudlaşdırılması üçün maddi və təşkilati zəminlərin təmin edilməsi təşkil edir. Müasir şəraitdə ölkənin kənd təsərrüfatı məhsulları bazarında inhisarçılıq hallarının qarşısının alınmasında bazar infrastrukturu sistemində ayrı-ayrı funksiyaları paralel surətdə yerinə yetirən obyektlərin şəbəkəsinin genişləndirilməsi, alternativ satış kanallarının yaradılması əhəmiyyətli rol oynaya bilər. Bununla əlaqədar, ilk növbədə, kənd təsərrüfatı məhsulların tədarükü, saxlanılması və nəql edilməsi ilə bağlı infrastruktur elementlərinin şəbəkəsinin genişləndirilməsi və bütün regionları əhatə etməsi qarşıdakı dövrdə də prioritet vəzifə kimi qarşıya qoyulmalıdır.

Bununla yanaşı, işdə göstərilir ki, gələcəkdə ölkənin sosial-iqtisadi inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, habelə aqrar sahənin inkişafına dair qəbul edilən dövlət proqramlarında kənd təsərrüfatı məhsullarının pərakəndə satış infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsinin dəstəklənməsinə yönəldilmiş tədbirlərin müəyyən edilməsi və onların həyata keçirilməsinin təmin edilməsi zəruridir.

Azərbaycan Respublikasının kənd təsərrüfatı kifayət qədər geniş ixrac potensiyalına malikdir. Həmin potensialın reallaşdırılmasının zəruri şərtlərindən biri bazar infrastrukturu sistemində ixraca kömək vasitələrinin formalaşdırılmasıdır. Müvafiq dünya təcrübəsini nəzərə almaqla, göstərilən



sahədə aqrar ixracatçıların ixtisaslaşdırılmış nəqliyyat vasitələri ilə təminatı, xarici bazarlara çıxışla əlaqədar texniki və maliyyə köməyinin göstərilməsi təmin edilməlidir. Hazırkı şəraitdə həmin funksiyaların reallaşdırılmasının ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilmiş xüsusi ixrac proqramlarının hazırlanması əsasında təşkili məqsədəuyğundur. Bu proqramların reallaşdırılmasına aqrar sektorda bazar infrastrukturunun həm mövcud və həm də yeni yaradılacaq institutlarının cəlb edilməsi vacibdir. Gələcəkdə zəruri hallarda aqrar sektorun bazar infrastrukturu sistemində ixraca kömək sahəsində ixtisaslaşdırılmış qurumun formalaşdırılması məsələsinə də baxıla bilər.

Aqrar sektorun bazar infrastrukturu sistemində informasiya və məsləhət xidmətləri göstərən vəsilələrin rolu yüksəldilməlidir. Dissertasiyada göstərilir ki, müasir şəraitdə informasiya təminatı kənd təsərrüfatı istehsalçıları üçün vahid informasiya məkanının yaradılması və bazarın bütün iştirakçıları tərəfindən daxili və xarici əmtəə bazarlarında vəziyyət (tələb, təklif, ehtiyatlar, qiymətlər, tariflər, məhsulun texniki-iqtisadi xarakteristikası, onun göndərilməsi şərtləri, ödənişin növləri, vaxtı və s.) barədə tam və keyfiyyətli informasiyanın alınması əsasında inkişaf etdirilməlidir. Bazar informasiyaları şərh, tövsiyə və proqnoz səciyyəli olmalıdır. Eyni zamanda, bu sistemin xidməti, informasiyaya tələbinin xarakterindən asılı olmayaraq, bütün təsərrüfat subyektlərini əhatə etməlidir.

Qeyd edilən tələblərə daha uyğun gələni aqrar sektorun bazar infrastrukturu sistemində marketinq - informasiya mərkəzlərinin yaradılması ola bilər. İşdə belə xidmətinin formalaşdırılmasının səmərəli təşkilati-funksional modelinin hazırlanması məsələləri araşdırılır və müvafiq təkliflər irəli sürülür. Eyni zamanda qeyd edilir ki, ölkə səviyyəsində marketinq - informasiya sisteminin uğurlu fəaliyyət göstərməsinin vacib şərtlərindən biri kompüter şəbəkəsi əsasında vahid informasiya məkanının yaradılmasıdır. Bunun üçün bütün səviyyələrdə kompüterlərlə, digər müvafiq texnika ilə, rabitə kanalları ilə zəruri səviyyədə təminatın həyata keçirilməsi və kadrların öyrədilməsi vacibdir. Eyni zamanda, vahid informasiya məkanında fəaliyyət üçün bütün qurumların qarşılıqlı marağını təmin edən normativ əsasların formalaşdırılması da vacibdir. Vahid marketinq informasiya şəbəkəsinə qoşulma həm region, həm də ölkə üzrə bazar informasiyalarının alınmasına, habelə zəruri məlumatların işlənilməsi, təhlili, sistemləşdirilməsi və müvafiq kanallar üzrə müxtəlif səviyyələrə ötürülməsinə təminat yaratmalıdır.

Aqrar sektorda bazar infrastrukturu obyektləri şəbəkəsinin zəruri tələblər səviyyəsində inkişaf etdirilməsi mənbələrindən biri həmin məqsəd üçün kənd təsərrüfatı istehsalçılarının özlərinin resurslarının cəlb edilməsidir. Bu

məqsədlə infrastruktur obyektlərinin yaradılması üçün müəyyən ərazilərdə fəaliyyət göstərən istehsalçıların birliklərinin formalaşdırılmasına zərurət yaranır. Müvafiq dünya praktikası həmin birliklərin təşkilati-iqtisadi forması kimi kooperativin seçilməsinin daha səmərəli olduğunu sübut edir. Dissertasiyada istehsal vasitələri ilə təminat və satış sahələrində aqrar istehsalçıların kooperativlərinin yaradılması və onların bazar infrastrukturunun vacib elementlərinə çevrilməsi zəruriliyi əsaslandırılır və bununla əlaqədar həyata keçirilməli olan institusional, təşkilati və iqtisadi tədbirlər göstərilir.

Dissertasiyanın "Nəticə" bölməsində aparılmış tədqiqatlar ümumiləşdirilir və müvafiq tövsiyələr formalaşdırılır.

Araşdırma göstərir ki, aqrar sferada bazar infrastrukturunun inkişafında dövlət köməyinin aparıcı rolunun saxlanılması məqsədəuyğundur. Mövcud problemlərin sistemli həlli baxımından infrastrukturun dövlət maliyyələşdirilməsinin həcminin artırılması ilə yanaşı, ona çoxistiqamətli xarakter verilməsi, o cümlədən kənd təsərrüfatı məhsullarının modern topdansatış bazarı obyektlərinin yaradılmasının, ölkənin bütün bölgələrində əkinçilik və heyvandarlıq məhsullarının tədarükünün mütərəqqi formalarını tətbiq edən müəssisələr şəbəkəsinin formalaşdırılmasının stimullaşdırılması vacibdir. Bununla yanaşı, ölkənin aqrar istehsalının ixrac potensialının dolğun reallaşdırılmasına imkan açan müvafiq infrastruktur elementlərinin yaradılması, habelə dayanıqlı marketinq - informasiya infrastrukturu şəbəkəsinin formalaşdırılması məsələlərinin həlli prioritet kimi qəbul edilməlidir.

Aqrar sferada bazar infrastrukturunun inkişafı sahəsində dövlət tədbirlərinin həyata keçirilməsi mexanizmlərinin strateji aspektləri gücləndirilməlidir. Bu baxımdan həmin tədbirlərin daxili və xarici amillərin təhlili əsasında hazırlanan bazar infrastrukturunun inkişaf konsepsiyasına uyğun olaraq, orta və uzun müddətli proqramlar çərçivəsində reallaşdırılmasının təmin edilməsinə ehtiyac yaranır. Bu proqramlar çərçivəsində bazar infrastrukturunun başlıca inkişaf hədəfləri müəyyən edilməli və onların həyata keçirilməsinə yönəldilmiş tədbirlər sistemi hazırlanmalıdır.

Aqrar sferada istehsal vasitələri ilə təminat sahəsində və ümumiyyətlə bütövlükdə bazar infrastrukturu sistemində rəqabətin inkişafına zəruri şəraitin təmin edilməsinə orta və uzun müddətli dövrlərdə birbaşa və dolayı olaraq təsir göstərən amil kənd təsərrüfatının maliyyələşdirilməsi və kreditləşdirilməsi sistemində əsaslı dəyişikliklərin aparılmasıdır. Bu halda həmin sistemin bir bölməsində – maliyyə vasitəçiliyi infrastrukturunda bazar təsərrüfatçılığı şəraitində kənd təsərrüfatına dövlət maliyyə köməyinin daha mükəmməl institusional mexanizmlərinin yaradılması nəzərdə tutulur.

Bazar infrastrukturunun inkişafı üçün resurs mənbələrinin genişləndiril-



məsi və kənd təsərrüfatı istehsalçılarının mənafelərinin qorunması baxımından bu sahədə kooperasiyanın imkanlarından istifadə edilməsi məqsədəuyğundur. Müasir şəraitdə bu istiqamətdə əhəmiyyətli irəliləyişlər bazar infrastrukturu xidmətləri göstərən kooperativlərin yaradılmasına və onların fəaliyyətinə dövlət tərəfindən təşkilati, texniki və maliyyə köməyinin göstərilməsi əsasında mümkündür. Bununla əlaqədar, zəruri dəstək tədbirlərinin müvafiq məqsədli proqramlara daxil edilməsi vacibdir.

Dissertasiya işinin mövzusu üzrə aşağıdakı işlər nəşr edilmişdir:


1. Müasir Azərbaycanın kənd təsərrüfatında əmək məhsuldarlığı və səmərəlilik. Azərbaycan Aqrar Elmi. Elmi- nəzəri jurnal; № 5-6 Bakı 2006. s.201-204.

2. Aqrar bölmədə struktur dəyişikliklərinin iqtisadiyyata təsiri. Azərbaycan Aqrar Elmi (Elmi-nəzəri Jurnal; № 7-8 Bakı 2006 ) s.126-129.

3.Aqrar istehsalın iqtisadi səmərəliliyinə maliyyə- kredit münasibətlərinin təsiri. Azərbaycan Elmi – Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatl və Təşkili İnstitutu. Elmi əsərlər Bakı 2006 s.328-333.

4. Aqrar sahədə bazar infrastrukturunun təkmilləşdirilməsində istehsalın makrostrukturunun və torpaq islahatlarının rolu. Maliyyə və Uçot jurnalı № 4 Bakı 2007 s. 17-25.

5. Azərbaycan bazar infrastrukturunun təkmilləşdirilməsi problemləri Kooperasiya. Elmi- nəzəri jurnal, № 3-4 Bakı 2009. s.85-88.

6. Müasir şəraitdə aqrar sahədə bazar infrastrukturunun inkişafının bəzi məsələləri. İqtisadi artımın intensiv inkişaf problemləri. Respublika Elmi – praktiki konfransın materialları "Kooperasiya" nəşriyyatı, Bakı 2011 s.166-168.

7. Проблемы совершенствования систем инфраструктурных элементов конкретного товарного в Азербайджанской Республике. Проблеми Системного Подходу в Економике. Киев с.72-77.

8. İqtisadiyyatın aqrar sahəsində bazar infrastrukturunun inkişafının əsas istiqamətləri."İpək yolu" Azərbaycan Universitetinin elmi jurnalı (№3, 2012) s. 46-53.

## РЕЗЮМЕ
**Алиев Ариф Байлар оглы**

### Основные направления формирование и развития рыночной инфраструктуры в аграрном секторе экономики

Диссертация состоит из введение, трех глав, заключение и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определены целы, объект и предмет исследования, научная новизна и практическая значимость диссертации.

В первой главе диссертации рассмотрены сущность рыночной инфраструктуры и его особенности в аграрном секторе экономики. Здесь раскрывается место рыночной инфраструктуры в экономической системе, исследуются функции и основные факторы формирования рыночной инфраструктуры в аграрном секторе, дается классификация его элементов.

Во второй главе диссертации исследуются вопросы формирования рыночной инфраструктуры в условиях радикальных реформ. В данном разделе работы рассматриваются основные этапы формирования инфраструктуры рынка средств производства для сельского хозяйства в условиях трансформационной экономики, анализируются процессы становления новой инфраструктуры рынка продуктов сельского хозяйства, а также создания инфраструктуры финансового посредничества в аграрном секторе, выявлены имеющейся проблемы в указанных отраслях.

И третей главе диссертации исследуются основные направления развития рыночной инфраструктуры в аграрном секторе экономики. Рассматриваются пути дальнейшего развития инфраструктурной сети по обеспечении средствами производства сельского хозяйства, разрабатываются предложения по совершенствованию инфраструктуры рынка сельскохозяйственных продуктов, по созданию эффективной системы рыночной информации и консалтинга, исследуются вопросы повышения роли кооперативов в развитии рыночной инфраструктуры.

И заключении обобщены результаты проведенного исследования и сформированы конкретные выводы и предложения.





## SUMMARY
**Aliyev Arif Baylar**

### The main directions of the formation and development of market infrastructure in the agricultural sector

The thesis consists of introduction, three chapters, conclusion and bibliography.

In the introduction relevance of the topic, identifies intact, object and subject of research, scientific novelty and practical significance of the thesis.

In the first chapter of the thesis deals with the essence of a market infrastructure and its features in the agricultural sector.

Is revealed the place of market infrastructure in the economic system, explores the functions and key factors of market infrastructure a classification of its elements in the agricultural sector.

In the second chapter of the thesis studies the issues of formation of market infrastructure in terms of radical reforms.

In this section of the paper examines the main stages in the formation of market infrastructure inputs for agriculture in a transition economy, analyzes the processes of formation of the new infrastructure of the market of agricultural products, as well as the infrastructure of financial intermediation in the agricultural sector, identified the existing problems in these industries.

The third chapter of the thesis examines the main directions of development of market infrastructure in the agricultural sector. The ways of further development of the infrastructure network by providing the means of production agriculture, developed proposals for improving the infrastructure of the market for agricultural products, to create an effective system of market information and consulting, explores issues of increasing the role of cooperatives in the development of market infrastructure.

Conclusion summarizes results of the study and formed the specific findings and suggestions.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot çap vərəqi 1,0 ç.v.
sifariş № 302, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə çap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЛИЕВ АРИФ БАЙЛАР ОГЛЫ**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЕ И РАЗВИТИЯ РЫНОЧНОЙ ИНФРАСТРУКТУРЫ В АГРАРНОМ СЕКТОРЕ ЭКОНОМИКИ

**5312.01 – «Экономика отрасли»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**ГЯНДЖА – 2013**